# Lənkəran çayı

Azərbaycanda elə bir ev yoxdur ki, gün ərzində orada çay dəmlənməsin. Ümumiyyətlə, bizdə özünəməxsus çay mədəniyyəti formalaşıb və bizim üçün çay təkcə susuzluğu yatırmaq vasitəsi deyil.







Biz həm də çay süfrəsi arxasında söhbətləşir, deyib-gülür, bir-birimizə ürəklərimizi açır, problemlərimizi bölüşürük. Deyirlər ki, hələ qədim dövrlərdə saraylarda keçirilən rəsmi qəbullarda qonaqlara çay təklif edilərmiş. Elçilik mərasimlərində süfrəyə çay gətirmək adəti isə bu gün də davam edir. Azərbaycan azsaylı ölkələrdəndir ki, çay haqqında çoxlu şeirlər yazılıb, mahnılar bəstələnib.

Bu qiymətli içkinin hazırlandığı bitki ilk dəfə Azərbaycanda 1912-ci ildə Lənkəran ərazisində əkilmişdir. Çay emalı zavodu da ilk dəfə elə burada - Lənkəranda 1937-ci ildə tikilib. Bundan sonra, xüsusən ötən əsrin 70-80-ci illərində respublikamızda minlərlə hektar sahədə çay əkilib-becərilib və tonlarla çay istehsal edilib. O dövrdə Bakıda və Lənkəranda 2 böyük çay fabriki var idi və həmin müəssisələrdə minlərlə işçi çalışırdı.

1990-cı illərin məlum hadisələri zamanı isə çayçılıqda da geriləmə başladı. Becərilməyən, başlı-başına buraxılan plantasiyalar məhv oldu. Amma sonra gördük ki, sən demə, ən dadlı, ən keyfiyyətli çay elə öz Azərbaycanımızda hasilə gələn məhsulumuz imiş. Ekoloji cəhətdən təmiz, ətirli, gözəl rəngi və özünəməxsus tamı ilə Azərbaycan çayının əvəzi yoxmuş.

Son illər ölkədə çayçılığın inkişafına göstərilən diqqət və qayğı nəticəsində bu sahədə köklü dönüş yaranmışdır. İndi Lənkəran, Astara və Masallı rayonlarında yeni çay plantasiyaları salınır, emal müəssisələri yaradılır. Təkcə Lənkəranda bu gün 566 hektar çay plantasiyası var ki, onun da 454,4 hektarı fermer və sahibkarlar tərəfindən yeni salınmışdır. Həyata keçirilən tədbirlər sayəsində istehsal ilbəil artır. Məsələn, keçən il Lənkəranda 101 ton çay yarpağı yığılmışdı və bu, əvvəlki ildəkindən 3 ton çoxdur. Respublika Meyvəçilik və Çayçılıq ETİ-nin Lənkəran filialı rayonda çayçılığın elmi əsaslarla inkişaf etdirilməsi məqsədilə sahibkarlar, fermerlər arasında maarifləndirmə işləri aparır. Rayonda çayçılığın inkişafı ilə bağlı xüsusi tədbirlər planı da hazırlanmışdır. Bu da deməyə əsas verir ki, Lənkəran bütün sahələrdə olduğu kimi, çayçılıqda da keçmiş şöhrətini qaytarır.

***Seyran CAVADOV,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***